**UŞAQLAR ÜÇÜN:**

*Up in the Tree*
*Anna's Pet (with Joyce Barkhouse)*
*For the Birds*
*Princess Prunella and the Purple Peanut*
*Rude Ramsay and the Roaring Radishes*
*Bashful Bob and Doleful Dorinda*
*Wandering Wenda*

**ŞƏKİLLİ ROMANLARI:**

*Angel Catbird*
*The Handmaid's Tale*

Margaret Atwood

# THE TESTAMENTS

Marqaret Etvuda mükafat qazandıran bu əsər “Damazlıq qızın əhvalatları” romanının davamı, ikinci hissəsidir.

Birinci romanda gizli qalan bütün sirlər, qaranlıq məqamlar bu romanda gün işığına çıxır.

Üç qadının dilindən danışılan hekayələrdə Gilead rejimi, “Mayday” təşkilatı, xalaların, komandir Judun əsl kimliyi ətraflı təsvir olunur.

“Şahid ifadəsi sənədləri”ndə danışan qızlar kimlərdir?

Gileadın içindəki rejimi çökdürməyə çalışan naməlum “qaynaq” kimdir?

Lidiya xalanın məqsədi nədir?

Gilead rejimi çökdürülə biləcəkmi?

Roman boyu bütün bu suallara cavab tapa biləcəksiniz.

***"Hər bir qadının müəyyən məqsədləri olmalıdır, yoxsa bir canavara çevrilər".***

CORC ELİOT, DANİEL DERONDA

***"Bir-birimizin üzünə baxanda sadəcə nifrət etdiyimiz bir üz görmürük, həm də güzgüyə baxırıq.... doğrudan da, bizə baxanda özünüzü görmürsünüzmü?"***

"OBERSTRUMBANNFÜHRER LİST"DƏN, KÖHNƏ BOLŞEVİK
MOSTTOVSKAYA, VASİLİ QROSSMAN, "HƏYAT VƏ TALE"

***"Azadlıq – ağır bir yük, ruhun üstünə düşən ağır və qəribə bir məsuliyyətdir... azadlıq bəxş edilmiş bir ərməğan deyil, bir seçimdir və bəzən çox çətin seçim ola bilir".***

URSULA K.LE QUİN, "ATUANIN QƏBİRLƏRİ"

# MÜNDƏRİCAT


Heykəl ........ 13
Qiymətli çiçək ........ 19
İlahi ........ 47
"Əvvəllər sevilmiş paltarlar" dükanı ........ 57
Furqon ........ 89
Altısı öldü ........ 105
Stadion ........ 153
Karnarvon ........ 167
"Təşəkkür hücrəsi" ........ 187
Yaz yaşılı ........ 209
Çuval geyimi ........ 227
"Karpitz" xalçaları ........ 247
Bağça qayçısı ........ 277
Ardua binası ........ 291
Tülkü və pişik ........ 325
Mirvari qızlar ........ 333
Qüsursuz dişlər ........ 357
Oxu otağı ........ 367
İş otağı ........ 395
Qan bağları ........ 403

Ürək döyüntülərim ....................................................... 427
Təngnəfəs ....................................................................... 437
"Divar" ............................................................................ 457
Neli C.Banks .................................................................. 463
Oyanış ............................................................................ 475
Sahilə yaxınlaşarkən..................................................... 483
Vida ................................................................................ 491

*On üçüncü simpozium* ..................................................... *495*
*Minnətdarlıq* ................................................................... *502*

# *I*

## *Heykal*

## *Ardua əlyazmaları*

### 1

Təkcə ölmüş insanlara heykəl qoyulmağa icazə verilir, amma mənim yaşarkən də bir heykəlim oldu. İndidən daşlaşmışam artıq.

Heykəlin altında "qatdığı şeylər üçün minnətdarlıqla" yazılmışdı. Vidala xala[1] uca səslə oxumuşdu bunu. Heykəli açmaq vəzifəsi yuxarıdakıların təlimatı ilə Vidala xalaya verilmişdi, amma o, heykəli açanda təqdirəlayiq kimi görünmürdü. Ona mümkün olduğu qədər təvazökarlıqla təşəkkür etdim və məni bürüyən örtüyün ipini çəkdim. Örtük dalğalanıb yerə düşdü və mən göründüm. Ardua binasında yaşayan bizlər uca səslə sevinə və gülə bilmərik, amma bir-iki ehtiyatlı alqış səsi də eşitdim. Başımı əyib salam verdim.

Heykəlim insan boyundan böyükdür. Normalda heykəllər necədirsə, bu da elədir. Məni uzun müddətdir, olmadı-

[1] Gileadda aparıcı qadın qüvvələr idilər. Qızlar uzun illər təlim keçdikdən sonra "Mirvari qız" missiyası üçün Gileaddan kənara – xarici ölkələrə göndərilir, missionerlik fəaliyyətlərini bitirib Gileada qayıdandan sonra "xala" rütbəsi qazanırdılar. Xalalar Gileadın daxili əmin-amanlığını təmin edir, qadınları idarə edirdilər. Onlar ərə getmək məcburiyyətindən azad idilər (*tərc. qeydi)*.

ğım qədər gənc və incə göstərir. Çiyinlərimi geri çəkib dimdik dayanmışam. Dodaqlarım sərt bir təbəssümlə qıvrılıb. Gözlərim idealizmimi, yəni vəzifəmə sarsılmaz bağlılığımı və bütün maneələrə qarşı irəli getmək qərarımı təmsil etdiyi anlaşılan – baxmayaraq ki, heykəlim Ardua binasına gedən cığırın kənarındakı irigövdəli ağac və kolların qabağında qoyulmuş olduğu üçün səmadakı hər hansı bir şey tərəfindən görünməsi mümkün deyil – kosmik bir nöqtəyə dikilib. Ehh, biz xalalar daş halımızda belə həddimizi bilməliyik.

Sol əlimlə mənə güvənlə baxan yeddi-səkkiz yaşında bir qız uşağının əlindən tutmuşam. Sağ əlim isə böyrümdə çömbəlmiş, başıörtülü, ürkək-ürkək və minnətdar baxışlarla mənə baxan dörd qadının – Damazlıq qızlarımızın[1] – birinin başının üstündədir. Arxa tərəfimdə Mirvari qızlarımızdan[2] biri var. Missionerlik səyahətinə çıxmağa hazırdır. Belimdəki kəmərdən çubuğum sallanır. Bu silah mənə çatışmazlıqlarımı xatırladır; daha təsirli ola bilsəydim, bu silaha ehtiyacım olmazdı. Səsimdəki inandırıcılıq bəs edərdi. Heykəl kompleksi olaraq bunu elə də uğurlu hesab etmək olmaz, çox izdiham var, adam çoxdur. Kaş ki, məni daha çox qabardardılar, mən daha da ön planda olardım. Ən azından ağlı başında kimi görünürəm. Başqa cür də görünə bilərdim. Bu heykəli

---

[1] Rejimə qarşı çıxan, qaydalara üsyan edən və ya Gileaddan qaçmağa çalışan qadınlar Damazlıq qız kimi komandorların və ali təbəqədən olan insanların seks köləsi edilirdi. Damazlıq qızların əsas funksiyası doğub törəməkdir. Onların öz adları yoxdur, adları qadağan edilib, hansı kişiyə təhkim edilərsə, onun adı ilə adlandırılırlar. Məsələn, “Of-Fred”, “Of-Qlen” (tərc. qeydi).

[2] Ərə getmək istəməyən qızlar. Bu qızlar xalaların nəzarəti altında bir müddət Ardua binasında yaşayır, təlim keçir, sonra Gileaddan xaricə missionerliyə göndərilirlər (tərc. qeydi).